# Daxili İşlər Nazirliyində "Heydər Əliyev İli"nə həsr olunmuş tədbirlər davam edir










**Mayın 6-da Daxili İşlər Nazirliyində (DİN) Ulu Öndərin 100 illiyinə həsr olunmuş tədbir keçirilib.**

Bu barədə AZƏRTAC-a DİN-in Mətbuat xidmətindən məlumat verilib. Bildirilib ki, Azərbaycan dövlətinin memarı və qurucusu, dünyaşöhrətli siyasətçi Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi münasibətilə nazirliyin rəhbər heyəti, əməkdaşları və hərbi qulluqçuları Fəxri xiyabana gələrək Ulu Öndərin abidəsi önünə çiçək dəstələri düzüblər. Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın xatirəsi də ehtiramla yad edilib.

Ümummilli Liderin yubileyinə həsr olunmuş tədbir nazirlikdə davam etdirilib.

Daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov Ulu Öndər Heydər Əliyevin yeni Azərbaycanın qurulmasında, onun müstəqilliyinin, iqtisadi-siyasi əsaslarının möhkəmləndirilməsində, ölkəmizin beynəlxalq birliyin tam və bərabərhüquqlu üzvünə çevrilməsində, demokratik imicinin yüksəldilməsində, ümumən dövlətçilik tarixində müstəsna xidmətləri barədə ətraflı danışıb. Nazir Ümummilli Liderin daxili işlər orqanlarının formalaşmasında və inkişafında rolunu, şəxsi heyətə diqqət və qayğısını xüsusi vurğulayıb.

Tədbir iştirakçıları qarşısında Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutunun şöbə müdiri, professor Ədalət Qasımov "Azərbaycan xalqının tarixi taleyində Heydər Əliyev fenomeni" mövzusunda əhatəli çıxış edib.

Tədbirdə Ümummilli Liderin zəngin həyat yolundan və fəaliyyətindən bəhs edən "Heydər Əliyev və 44 günlük Zəfər yolu" sənədli filmi nümayiş olunub.

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə elan olunmuş "Heydər Əliyev İli" çərçivəsində silsilə tədbirlər nazirliyin Polis Akademiyasında, Ali Hərbi Məktəbində, Əlahiddə Çevik Polis Alayında, Bakı Şəhər Baş Polis İdarəsində, ərazi polis orqanlarında və hərbi hissələrində də keçirilib, həmçinin konfranslar, intellektual yarışlar, idman turnirləri, müsabiqələr, ağacəkmə aksiyaları və sairə təşkil edilib.

Azərbaycan.- 2023.-7 may.- S.5.